UOT 338.43

*Xuraman İsmayıl qızı RZAYEVA*
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*“Nəzəri və praktiki iqtisadiyyat” kafedrasının müəllimi*
*xuramanrzayeva58@gmail.com*

# AQRAR SAHƏDƏ İSTEHSAL RESURSLARI BAZARININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi və fermerlərin gəlirlərinin artırılması məqsədilə təsərrüfatların istehsal ehtiyatları ilə təminatına təsir edəcək istehsal resursları bazarının Azərbaycanda mövcud vəziyyətinin öyrənilməsi və onun təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir.

**Tədqiqatın metodologiyası -** Azərbaycanda kənd təsərrüfatı üçün mühüm olan resurslar bazarının formalaşması və inkişafı istiqamətində müşahidə, statistik təhlil, ümumiləşdirmə, analitik təhlil və müqayisə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – Azərbaycanın kənd təsərrüfatında torpaq bazarı, əmək bazarı, maddi-texniki resurslar bazarı və informasiya bazarı vasitəsilə təchizatın təkmilləşdirilməsi istiqamətlərində verilən təklif və tövsiyələrdən kənd təsərrüfatı sahələri üzrə proqramların hazırlanmasında və tədbirlər planının müəyyən edilməsində istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayan istehsal resursları bazarının mövcud vəziyyətinin müasir tələblərə cavab vermədiyi müəyyən edilmiş və bu səbəbdən istehsal resurslarından səmərəli istifadə səviyyəsinin aşağı olduğu aşkar edilmişdir. Məhz bu baxımdan istehsal resursları bazarını əhatə edən maliyyə, torpaq, əmək, texniki resurslar və informasiya bazarlarının kənd təsərrüfatını səmərəli təchiz etməsi üçün, onların fəaliyyətlərinin genişləndirlməsi və təkmilləşdirilməsi tələb olunur.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** Kənd təsərrüfatı sahəsinin spesifikliyi, məhsul istehsalında və satışında yaranan problemlər, son vaxtlarda baş verən qiymət artımları, artan risklər və digər amillər istehsal resursları bazarının fəaliyyətinin təkmilləşdirilməsini zəruri edir. Tədqiqatda istehsal resursları bazarının ayrı-ayrı sahələri üzrə fəaliyyətinin tənzimlənməsini şərtləndirən amillər müəyyən edilmişdir.

***Açar sözlər: istehsal, resurs, bazar, kənd təsərrüfatı, torpaq, əmək, informasiya, inkişaf, iqtisadiyyat.***

## *Giriş*

Azərbaycanda son illərdə kənd təsərrüfatının intensivləşməsi əsasən təbii ehtiyatların və ekosistem xidmətlərinin idarə edilməsinə əsaslanan və sovxoz-kolxoz sisteminə mənsub olan ənənəvi əkinçilik sistemindən fərqli olaraq müasir biokimyəvi texnologiya və mühəndislik texnologiyasının məhsul istehsalına tətbiqinə keçidi təcəssüm etdirir. Kənd təsərrüfatı məhsulları istehsalını həyata keçirən təsərrüfatlarda məhsuldarlığın aşağı olmasının əsas səbəblərindən biri təchizatın zəif olması və təchizat zəncirinin düzgün idarə edilməsi strategiyasının olmaması ilə bağlıdır. Bazar münasibətlərinin inkişaf etdiyi şəraitdə istehsalın davamlı inkişafının təmin edilməsində iki bərabər formada əhəmiyyət kəsb edən komponenti aşağıdakı kimi ayırmaq olar:

1. bütün səviyyələrdə kənd təsərrüfatı istehsalçıları və alıcıları üçün sərbəst bazar təminatına;
2. tələb - təklifin optimal balansının müəyyən edilməsi və bazar münasibətlərinin tənzimlənməsi üçün tətbiq olunan iqtisadi mexanizmlərə.

Bazar infrastrukturunun inkişaf etdirilməsi istehsalın səmərəliliyinin artırılmasına və inkişafına birbaşa təsir edir. Bazar iştirakçılarının fəaliyyətinin tənzimlənməsində əsas məqsəd onları səmərəli fəaliyyətə və ekoloji təmiz istehsala yönəltməkdir.

Kənd təsərrüfatının iqtisadi səmərəliliyi əsasən istehsalın intensivliyi səviyyəsindən asılıdır. İndiki şəraitdə resurslara qənaət edən və intensiv inkişafı təmin edən istehsal texnologiyalarının istifadəsi, elmi cəhətdən əsaslı əkin dövriyyəsinin tətbiqi və inkişafı, heyvandarlıqda seleksiya və damazlıq işinin yaxşılaşdırılması, yüksək perspektivli məhsul verən toxum istehsalı, səmərəli bitki növləri və yüksək məhsuldar cins heyvandarlıq sahələri, mineral və üzvi gübrələrlə təminat, herbisidlərin və bitkilərin mühafizəsi vasitələrindən ekoloji mühitə zərər vermədən optimal dozalarının tətbiqi, heyvandarlığın yem bazasının möhkəmləndirilməsi və s. istehsalın intensivləşməsinin ən vacib sahələri hesab olunur.

Kənd təsərrüfatında mühüm məsələlərdən biri də istehsalçıların gəlirlərinin artırılması və bu sahədə muzdlu çalışanların yüksək ödənişli iş üçün motivasiyasıdır ki, bu da təsərrüfatların gəlirlərinin səviyyəsi ilə müəyyən edilir. Yəni, bazar iqtisadiyyatı şəraitində əldə edilən mənfəət, muzdlu işçilərə ödənilən əməkhaqqı, işçinin və ailəsinin lazımi maddi və mənəvi ehtiyaclarının ödənməsinə və əmək ehtiyatlarının genişləndirilməsi üçün şərait yaratmasına imkan verən əməyin qiyməti əsasında formalaşmalıdır.

Aqrar sahənin səmərəli inkişaf etməsi və istehsalın iqtisadi səmərəliliyinin artırılması torpaq və əmək bazarının, digər istehsal resursları ilə təsərrüfatları təmin edən xidmətlər bazarının inkişaf etdirilməsi, göstərilən xidmətlərin keyfiyyətinə zəmanət verilməsi və resurslar bazarının idarəedilməsinin təkmilləşdirilməsi olduqca aktual məsələlərdəndir. Təsərrüfatlarda innovativ texnologiyalara üstünlük verməklə istehsal proseslərinin müasir texnikalarla, keyfiyyətli resurslarla təminatı ixrac potensialını artırmağa, ixrac coğrafiyasını genişləndirməyə və rəqabətqabiliyyətli məhsul istehsal etməyə imkan verir.

Aqrar islahatların başlanmasından tədqiqat dövrünə (2022) qədər Azərbaycanda kənd təsərrüfatı istehsalı və kəndlərin inkişafı sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilmişdir. Bununla bərabər, ölkədə və dünyada ərzaq məhsullarına olan tələbatın artan trendlə davam etməsi, ərzaq və kənd təsərrüfatı məhsullarının qiymətlərinin artması, şəhərləşmə və sənayeləşmənin təbii qaynaqlar uğrunda rəqabət və şəhərlə kənd yerlərində əldə edilən gəlirlər arasında yaranan fərqlər də daxil olmaqla kənd təsərrüfatı sektoru böyük problemlərlə üzləşir. Bu fonda tək Azərbaycanda yox, bir çox inkişaf etməkdə olan ölkələrdə aqrar sektora investisiyalar yenidən prioritet halına gəlmişdir.

Aqrar sahədə yaranan aqroparklar qida, ərzaq və kənd təsərrüfatı məhsullarının tədarükünü artırmaq üçün müxtəlif təsərrüfat formalarının mütəşəkkil şəkildə çalışdığı dəyişən bir quruluşa uyğunlaşmalıdır. Bunun üçün anbarlar, nəqliyyat, qablaşdırma, saxlama və s. xidmətlərin təsnifat və keyfiyyətinə nəzarətin fərqli bir üsulu tələb olunur. Bu da müvafiq olaraq istehsal resursları bazarının inkişafından və təsərrüfatların təminat səviyyəsindən asılıdır.

**Kənd təsərrüfatında resurslar bazarının potensialı və ondan istifadənin mövcud vəziyyəti**

Kənd təsərrüfatında iqtisadi səmərəliliyin yüksəldilməsi istehsalın əsasını təşkil edən resursların əldə edilməsi qiymətindən və onlardan istifadə səviyyəsindən asılıdır. Bazar iqtisadiyyatı şəraitində aqrar sahədə resurslar bazarının tənzimlənməsi və onun təminat səviyyəsi aktual olmaqla bərabər xüsusi əhəmiyyət kəsb edir.

İqtisadi nəzəriyyə dərsliyində qeyd edildiyi kimi *inkişaf etmiş bazar sistemi çox mürəkkəb və zəngin quruluşa malikdir. Müasir bazar münasibətləri şəraitində bazarın ən vacib quruluşlarından biri onun obyektlərinin iqtisadi təyinatına görə bir-birindən fərqləndirilməsi nəticəsində yaranır və özünə aşağıdakıları daxil edir: istehlak şeyləri bazarı, əmək bazarı, elmi-texniki yeniliklər bazarı və s. Bazar iqtisadiyyatı şəraitində bu bazarların hər birinin həm ayrılıqda normal fəaliyyəti, həm də onların səmərəli qarşılıqlı əlaqəsi inkişaf etmiş bazar infrastrukturu şəraitində mövcud olur və onun vasitəsilə həyata keçirilir* [8. s, 210-211].

Göründüyü kimi, bazar infrastrukturunu təşkil edən müxtəlif istehsal və istehlak resursları bazarları fərqli yerlərdə fərqli şəkildə fəaliyyət göstərsələr də ümumilikdə bazar infrastrukturunu təşkil edir və onlar arasında qarşılıqlı əlaqələr mövcuddur. Digər tərəfdən iqtisadiyyatın fərqli sahələrinin təchizatında mühüm rol oynayan bazarların mövcudluğu və yeni bazarların meydana çıxması (informasiya bazarı) ümumi iqtisadiyyatın davamlı inkişafını təmin etmiş olur və bazar

infrastrukturunu daha da genişləndirir.

Aqrar sahədə istehsal resursları bazarı aşağıdakı kimi formalaşmışdır:

- torpaq bazarı;
- əmək bazarı;
- informasiya bazarı;
- maddi-texniki resurslar bazarı.

Kənd təsərrüfatının əsas sahələrindən biri bitkiçilik sahəsidir. Bitkiçilik sahəsi əhalini ərzaqla, heyvandarlığı yemlə və sənayeni xammalla təmin edir, daha doğrusu kənd təsərrüfatının özəyini təşkil edir. Bitkiçiliyin inkişaf etdirilməsi ilk novbədə torpaq resurslarından səmərəli istifadədən və onun münbitliyinin qorunmasından asılıdır. Kənd təsərrüfatında resurs deyəndə ilk növbədə məhdud olan, qorunması vacib olan və artırılması və ya genişlənməsi mümkün olmayan torpaq resursları önə çəkilir. Bu isə torpaq ehtiyatlarından daha səmərəli və rasional istifadənin zəruriliyini diktə edir. Azərbaycanda əkin sahələri geniş olmadığından onun qorunması əsas prioritet məsələlərdən biri hesab olunur. Kənd təsərrüfatı üçün istifadə olunan torpaq sahələri kənd təsərrüfatına yararlı torpaq sahəsinin 2020-ci ildə 50.7%-ni təşkil etmişdir və bu göstərici 2015-ci illə müqayisədə 3.7% bəndi aşağıdır. Kənd təsərrüfatına yararlı torpaqların təyinatı üzrə bölgüsü cədvəl 1-də verilmişdir.

***Cədvəl 1.***

***Kənd təsərrüfatına yararlı torpaqlar, ilin axırına****

| İllər | Kənd təsərrüfatına yararlı torpaqlar | o cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Əkin yeri | Dincə qoyulmuş torpaqlar | Çoxillik əkmələr | Biçənək və örüş-otlaq sahələri |
| 2015 | 4769.8 | 1897.5 | 40.2 | 237.0 | 2595.1 |
| 2016 | 4772.9 | 1959.1 | 39.8 | 241.1 | 2532.9 |
| 2017 | 4777.5 | 2054.7 | 39.8 | 246.8 | 2436.2 |
| 2018 | 4779.5 | 2057.9 | 40.0 | 255.0 | 2426.6 |
| 2019 | 4779.7 | 2056.5 | 39.5 | 260.3 | 2423.4 |
| 2020 | 4780.1 | 2045.2 | 39.2 | 272.7 | 2423.0 |

***Mənbə**: stat.gov.az*

Kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında torpaq ehtiyatlarından səmərəli istifadənin təmin edilməsini nəzərə alaraq qeyd etmək lazımdır ki, 2015-2020-ci illərdə orta hesabla ölkədə kənd təsərrüfatına yararlı ümumi torpaq sahəsi 4776.6 min hektar və əkin sahələri isə 2011.8 min hektar təşkil etmişdir. Qeyd edilən illər ərzində kənd təsərrüfatına yararlı torpaq sahələri 10.3 min hektar, əkin yeri isə 147.7 min hektar artırılmışdır. Bu tendensiya kənd təsərrüfatı torpaqlarının əkin sahəsinin artması fonunda baş verir və bununla da onların daha dolğun və səmərəli məqsədli istifadəsinin təmin edilməsi əsas məsələlərdən biri hesab olunur. Biçənək və örüş-otlaq sahələrinin payının 2015-ci ildəki 54.4%-dən 2020-ci ildə 50.6%-ə enməsi, müəyyən kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan iri təsərrüfatların bitkiçilik sahəsindəki istehsal imkanlarının genişləndirilməsi ilə əlaqədardır. Müqayisə olunan illər ərzində iribuynuzlu mal-qaranın sayı 1.7%, qoyun və keçilərin sayı isə 6.4% azalmışdır. Lakin baş verən azalmaya baxmayaraq innovativ inkişafa diqqətin artırılması əsas heyvandarlıq məhsullarının artmasına səbəb olmuşdur. Belə ki, 2015-ci illə müqayisədə 2020-ci ildə ət istehsalı 15.9%, süd istehsalı 13.9% və yumurta istehsalı isə 22.8% artmışdır. Bu isə resurs ehtiyatlarından səmərəli istifadəyə müsbət dəyişiliklərin olduğunu göstərir.

Torpaq ehtiyatlarından səmərəli istifadə edilməsində torpaq bazarının formalaşmasının xüsusi əhəmiyyəti vardır. Bu məqsədlə Azərbaycan Respublikasında torpaq bazarının təşkilinin və torpaq

bazarında iqtisadi və hüquqi münasibətlərin tənzimlənməsi üçün “Torpaq bazarı haqqında” 7 may 1999-cu il 665-IQ № -li Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

Ölkədə kənd təsərrüfatının və kənd yerlərinin inkişafı baxımından əsas istehsal vasitəsi olan torpaqdan dayanıqlı istifadə xüsusi əhəmiyyətə malikdir. Torpaq resurslarından dayanıqlı istifadə özündə iqtisadi, sosial və ekoloji aspektlərin vəhdətini əks etdirir. Yəni torpaqlardan istifadə zamanı iqtisadi səmərəliliklə yanaşı kənd yerlərində məşğulluq, gəlir, ərzaq təhlükəsizliyi, həyat səviyyəsi kimi sosial məsələlər və ətraf mühitin qorunması prinsipləri də daim diqqət mərkəzində saxlanmalıdır. Qeyd edilən yanaşmanın təmin edilməsi üçün torpaqların konsolidasiyası mühüm rol oynayır.

Cədvəl 2-də verilən FAO-nun statistik məlumatlarından göründüyü kimi, Azərbaycanın əkin sahəsi Gürcüstan, Qazaxıstan və Çin istisna olmaqla cədvəldə verilən ölkələr arasında ən az sahəyə malik olmasına baxmayaraq kənd təsərrüfatında çalışanların sayına görə Azərbaycan öndə gedir. Aparılan hesablamalar göstərir ki, 2019-cu ildə kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahəsinə yönəldilən kreditə görə 1 hektar əkin sahəsinə düşən kreditin məbləği 152.5 manat təşkil etmişdir ki, bu da Ukrayna, Qazaxıstan, Gürcüstan və Türkiyədən çox olsa da cədvəldə verilən digər ölkələrdən 8-9 dəfə aşağıdır.

İqtisadiyyatın hər bir sahəsində, o cümlədən kənd təsərrüfatında istənilən istehsal proqramının həyata keçirilməsi təkcə istehsal vasitələrinin deyil, həm də işçi qüvvəsinin mövcudluğundan və əmək ehtiyatlarının tamlığından asılıdır. Çünki əmək ehtiyatları olmadan heç bir sahədə bəşəriyyət üçün maddi və mənəvi nemətlər yaratmaq mümkün deyildir. Əmək ehtiyatlarının tamlığı dedikdə tələb olunan sahələr üzrə peşəkar kadrların mövcudluğu başa düşülür. Əmək ehtiyatları kənd təsərrüfatı istehsalının inkişafında ən vacib amildir. Aqrar sahə peşəkar mütəxəssis və işçi qüvvəsi ilə nə qədər yaxşı təmin olunarsa və onlardan nə qədər səmərəli istifadə edilərsə, bir o qədər ucuz məhsul alınar və nəticədə torpaqdan daha səmərəli istifadə olunar və bu da aqrar iqtisadiyyatın yüksəldilməsinə təsir edər. Ümumilikdə iqtisadiyyatın iqtisadi vəzifəsi əməyin düzgün təşkili, əmək məhsuldarlığının artırılması yolu ilə əmək ehtiyatlarından səmərəli istifadə etməkdir.

**İstehsal resursları bazarının təkmilləşdirilməsi istiqamətləri**

Kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi və fermerlərin fəaliyyətinin stimullaşdırılması məqsədilə hazırlanan inkişaf strategiyaları kənd təsərrüfatı sektorunda məhsuldarlığın artırılmasını və milli, regional və qlobal bazarlara daha yaxşı çıxışı tələb edir. Bununla belə, mövcud bazar siyasətlərində və idarəetmə sistemlərində tam istifadə olunmayan məhsul növləri üzrə məhsuldarlığın əlavə artım potensialı mövcuddur. Bu potensialdan istifadə etmək istər birbaşa, istər bazar qiymətləri və əmək bazarı vasitəsilə kənd yerlərində ciddi problemlərlə üzləşən ailə-kəndli və ev təsərrüfatları üçün şəraiti yaxşılaşdıra bilər.

Kənd təsərrüfatının istehsal potensialı müxtəlifdir və bu təbii resurslardan, coğrafi mövqedən, iqtisadiyyatın digər sahələri ilə əlaqədən və əhalinin həyat səviyyəsini əks etdirən sosial göstəricilərdən asılıdır. Bununla belə, son onilliklər ərzində kənd təsərrüfatı sektorunda davamlı inkişaf səviyyəsinə nail olmaq üçün gözlənilən nəticələrin əldə edilməməsinə sosial və təbii kapitalın inkişafına investisiyaların kifayət qədər olmaması da ciddi təsir etməkdədir.

Torpaq kapital və əmək ilə birlikdə ənənəvi olaraq ümumi iqtisadiyyat kontekstində qeyd olunan və fərqlənən üç klassik istehsal amilindən biridir. Kənd təsərrüfatı iqtisadiyyatında istifadəsiz torpaqdan və ona daimi qoyulmuş kapitaldan ibarət olduqda, bu amil torpaq kapitalı adlanır. Torpaq kapitalı və onun daxilində torpağın istehsal amillərinin sabit və dəyişən xərclərə uyğun olaraq təsnifatına görə qısa müddətdə sabit amil hesab edilir.

Kənd təsərrüfatının inkişafına mühüm təsir edən amillər resurslar bazarının formalaşması və inkişafı ilə bağlıdır. Torpaq bazarının formalaşması əsasən torpağın düzgün qiymətləndirilməsindən və bunu müəyyən edən göstəricilərdən asılıdır. Müəyyən edilmiş indikatorlara uyğun olaraq sorğular aparmaqla torpaqları qiymətləndirmək mümkündür. Sorğu bizə orta torpaq qiymətləri və indekslərinin regional əsasda işlənməsi yolu ilə torpaq bazarının ümumi tendensiyasının ətraflı xülasəsini təqdim etməyə imkan verir. Beləliklə, əldə edilən dəyərlər torpaq bazarında gedən

*Cədvəl 2.*

***2019-cu ildə ölkələr üzrə kənd təsərrüfatında istehsal resurslarından istifadə vəziyyətinə dair məlumat***

| Sıra № | Ölkə adı | K/t yararlı torpaq sahələri, min ha | Faktiki istifadə edilən əkin sahəsi, min ha | Torpaqdan əkin məqsədləri üçün istifadə payı, % | Gübrə istifadəsi, min ton | Bitki mühafizə vasitələri istifadəsi, min ton | Gübrə və bitki mühafizə vasitələrindən istifadə vəziyyəti, ton/ha | Kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahəsinə yönəldilən kredit vəsaitləri, milyon ABŞ dolları | Ümumi kredit qoyuluşlarında kənd təsərrüfatı, meşə və balıqçılıq sektorunun payı, % | Aqrar sahədə məşğulluq sayı, min nəfər | Aqrar sahədə məşğul əhalinin ümumi məşğul əhalidəki payı, % |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan | 4779.8 | 2096.1 | 43.9% | 158.4 | 1.1 | 0.08 | 319.6 | 3.6 | 1777.7 | 36.0 |
| 2 | Çin | 528509.2 | 119474.2 | 22.6% | 47553.4 | 3427.5 | 0.43 | 200512.9 | 1.5 | məlumat yoxdur | məlumat yoxdur |
| 3 | Çexiya | 3523.659 | 2484.472 | 70.5% | 411.7 | 3.4 | 0.17 | 2703.0 | 1.8 | 141.3 | 2.4 |
| 4 | Gürcüstan | 2367.8 | 307 | 13.0% | 21.1 | 5.0 | 0.08 | 23.2 | 2.2 | 644.6 | 1.8 |
| 5 | Almaniya | 16666 | 11714 | 70.3% | 2039.4 | 106.6 | 0.18 | 60680.9 | 3.5 | 510.6 | 0.7 |
| 6 | İtaliya | 13120.962 | 6914.183 | 52.7% | 885.1 | 103.4 | 0.14 | 44735.1 | 5.6 | 908.8 | 2.7 |
| 7 | Qazaxıstan | 214453.2 | 29857.2 | 13.9% | 85.7 | 25.5 | 0.004 | 1328.4 | 3.7 | 1199.8 | 13.6 |
| 8 | Polşa | 14523 | 11055 | 76.1% | 1960.9 | 48.2 | 0.18 | məlumat yoxdur | məlumat yoxdur | 1498.5 | 1.5 |
| 9 | Türkiyə | 37716 | 19580 | 51.9% | 2466.4 | 97.6 | 0.13 | 112.5 | 0.03 | 5084.9 | 2.9 |
| 10 | Ukrayna | 41311 | 32924 | 79.7% | 2142.5 | 49.7 | 0.07 | 2383.4 | 8.3 | 1108.8 | 6.6 |

*Mənbə: Mənbə:http://www.fao.org/faostat/en/#data/OE*

təkamülün göstəricisi hesab edilir. Torpaq dəyərlərinin ərazi məlumat bazasını yaratmaqla torpaq bazarının səmərəli fəaliyyəti təmin edilir.

A.H.Vəliyev qeyd edir ki, *torpaq bazarında qiymətlər əqdlərin növündən, satış formasından, satış obyektinin təyinatından, hüquqi statusundan və rejimindən, torpaqların normativ qiymətindən, bazarın vəziyyətindən, həmçinin bazardakı tələb-təklifdən asılı olaraq formalaşır [7, s. 292].*

Qeyd edək ki, yuxarıda qeyd edilənlərlə bərabər, kənd təsərrüfatı məhsullarının becərilməsi üçün istifadə olunan torpaqların qiymətləri qeyd edildiyindən fərqli olaraq müəyyən edilir. Yəni, torpaqların orta qiymətlərinin və nəticədə illik dəyişikliklər baş verməsi səbəbindən təxmini qiymətlərə nail olmaqla müxtəlif kateqoriyalı bitkilər üçün torpaq dəyərləri müəyyən edilir və nəticədə yerli şəraitin xüsusiyyətlərinə görə tamamilə fərqli qiymətlər alınır. Yəni torpaq (dəmyə / suvarılan, münbitlik dərəcəsi, torpaq çevrilmələrinə həssaslıq) indeksləri müəyyən edilir və qiymətləndirmə aparılır. Torpağın qiymətləndirilməsi zamanı onun relyefindən, suvarılan sahələrin suvarılması imkanlarından, çoxillik əkmələrin növündən asılı olaraq çoxillik əkmələr altında olması, qrunt suları təhlükəsi (şorlaşma) kimi göstəricilərdən istifadə etməklə məlumat bankının yaradılması torpaq bazarının inkişafını stimullaşdıra bilər.

Resurslar bazarının bir qolunu da əmək bazarı təşkil edir. Aqrar sahəni əhatə edən əmək bazarı bir çox kritik məsələləri ortaya qoyur ki, burada kənd təsərrüfatı sahəsində qanunvericilik bazası olmasına baxmayaraq, kiçik istehsalçıların və ailə-kəndli təsərrüfatlarının və istehlakçılarının hüquqlarının səmərəli müdafiəsi istiqamətində tam səmərəli fəaliyyət mexanizmi görünmür. Aparılan müşahidələr göstərir ki, ölkəmizdə intensiv olaraq kənd təsərrüfatı məhsulları, xüsusən də meyvə və tərəvəz məhsulları istehsalı ilə məşğul olan təsərrüfatlarda (istixanalarda) aşağı ixtisaslı muzdlu işçi qüvvəsi geniş şəkildə istifadə olunur. Böyük təsərrüfatlarda peşəkar kadrlara və mütəxəssislərə olan ehtiyac (aqronom, baytar həkim) yerli əmək bazarı hesabına demək olar ki, ödənilmir.

İqtisadçı alim İ.H.İbrahimov öz tədqiqatlarında qeyd edir ki, *insan kapitalının formalaşması və inkişafında birbaşa iştirak edən ixtisaslı mütəxəssislərin hazırlanması və yeni biliklərin yayılması, tətbiqi və ötürülməsi zəruri şərtlər hesab edilir. Nəzərə almaq lazımdır ki, ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislər ölkənin milli iqtisadiyyatının və dövlətin idarə olunmasında mühüm rol oynayırlar [6, s. 153-154].*

Qeyd edildiyi kimi, bacarıqlı, peşəkar mütəxəssislərin, kadrların hazırlanması ölkənin hərtərəfli inkişafının əsas amilidir. Məhz bu baxımdan ölkədə gənclərin məşğulluğu məsələsi və bu səbəbdən yarana biləcək nəticələr bütün qərar qəbuletmə səviyyələrində narahatlıq doğurur. Həqiqətən də, iqlim böhranları və kənd təsərrüfatının hazırkı məhsuldarlığının aşağı olması, sektorun gəncləri adekvat işlə təmin etmək imkanlarına mane olan ciddi problemlər yaradır. Ölkədə gənclərin məşğulluğunun təşviqi üçün peşə təhsilli məktəblərin, agentliklərin (TKTA) fəaliyyətinin genişlənməsi, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi əmək bazarının tələbə uyğun inkişafını təmin etməyə imkan versə də bu istiqamətdə kifayət qədər addım atılmamışdır. Həm də təsərrüfatların çox kiçik olması aqrar sahədə əmək bazarı resurslarından davamlı olaraq istifadəni məhdudlaşdırır. Aqrar sahəni əhatə edən əmək bazarının zəif inkişafının bir səbəbi də müasir texnologiyaların mövcudluğu şəraitində kənd təsərrüfatının işçi qüvvəsi ilə həddən artıq yüklənməsidir (36%). Bu demək olar ki, inkişaf etmiş ölkələrlə müqayisədə ortalama 33% bəndi yüksəkdir.

İqtisadiyyatda artım baş verirsə bu özünü məşğulluğun və məhsuldarlığın artırılması ilə xarakterizə olunaraq göstərə bilər. Yəni iqtisadi artım gəlirli məşğulluğun artırılması üçün ilkin şərtdir, eyni zamanda, məşğulluğun və əmək məhsuldarlığının artmasının birgə nəticəsidir. Nəticədə, iqtisadi artım tempini məşğulluğun və əmək məhsuldarlığının artımının birgə inkişafı müəyyən edir desək, yanılmarıq. İqtisadi artımın gəlirli iş yerlərinin yaradılmasına təsiri təkcə artım tempindən deyil, həm də artımın gəlirli iş yerlərinə çevrilməsinin səmərəliliyindən asılıdır. Bununla belə, sonuncular artımın sektoral tərkibi və hər bir sektor daxilində artımın kapital/əmək intensivliyi kimi bir sıra amillərdən asılıdır. Adətən iqtisadi artım yeni iş yerlərinin açılmasını, həm məhsuldarlığı, həm də məşğulluqdan əldə olunan gəlirlərin artırılmasını şərtləndirir. Əgər sadəcə iş yeri açılırsa, əlavə məşğulluq təşkil olunursa və məhsuldarlıq aşağı olursa o zaman iqtisadi artım baş verməyə

bilər və belə artım davamlı ola bilməz. Odur ki, əmək bazarının inkişafı, işləyənlərin peşəkarlığının artırılması iqtisadi artıma təsir edən əsas amillər hesab olunur.

Resurslar bazarının digər qolunu maddi-texniki resurslar bazarı təşkil edir. Maddi-texniki resurslar bazarı kənd təsərrüfatının əsas və dövriyyə vəsaitləri ilə təmin edilməsində mühüm rol oynayır. Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarının əsas və dövriyyə resurslarına əlçatanlığı dövlət tərəfindən görülən stimullaşdırıcı tədbirlər nəticəsində təmin edilmişdir. Lakin təsərrüfatların gəlirlərinin aşağı olması onların sərbəst şəkildə əsas və dövriyyə resurslarını əldə etməyə imkan vermir. Digər tərəfdən maddi-texniki resurslar bazarında təklif olunan innovativ texnologiyalardan istifadə səviyyəsi aşağı düşür ki, bu da məhsuldarlığın azalmasına, rəqabət qabiliyyətinin aşağı düşməsinə səbəb olmaqla iqtisadi artıma mənfi təsir edir.

İ.H.İbrahimovun qeyd etdiyi kimi *kənd təsərrüfatında maddi-texniki ehtiyatlar bazarı formalaşdırılarkən bitkiçilik və heyvandarlıq məhsulları istehsalı üçün zəruri olan əsas və dövriyyə vasitələri ilə təmin olunma vəziyyəti nəzərə alınır. Bu hər bir sahənin tələbatı və istehsala təsir edən amillərdən asılı olaraq dəyişməsilə əlaqədardır. Aqrar bazarın tərkib hissəsi kimi maddi-texniki resurslar bazarının formalaşdırılması respublikada məhsuldar qüvvələrin inkişafının yeni keyfiyyət dəyişikliklərinin baş verməsi ilə səciyyələnir* [5, s. 271].

İnformasiya bazarının inkişafı son illərdə kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyətə malik olmaqla bərabər prioritet sahəyə çevrilmişdir. Kənd təsərrüfatı məhsullarının emalı sənayesinin mürəkkəbliyi artdıqca və bazarlar sərhədləri aşdıqca, biznes qərarı qəbul edənlər daha çox və daha yaxşı bazar məlumatlarına ehtiyac duyurlar.

Kənd təsərrüfatını əhatə edən informasiya bazarı məlumatı əslində kənd təsərrüfatı məhsullarının və xidmətlərinin istehsalı və satışı ilə məşğul olan müştərilərin tələblərini ödəmək üçün lazım olan bütün məlumatlara aiddir. Buna görə də bazar məlumatları təkcə təklif baxımından deyil, həm də tələb baxımından qərar qəbul edənlər və qərar qəbul etmək üçün vaxtında məlumat almalı olan istehlakçılar üçün də vacibdir. İnformasiya bazarının inkişafı satınalma zamanı daha yaxşı qərarlar qəbul etmək imkanı yaradır.Onu da qeyd edək ki, bazar məlumatları mövcud müxtəlif variantlar haqqında daha yaxşı məlumatlı olan alıcılar və satıcılar arasında aparılan əməliyyatlarda şəffaflığa imkan verir. Digər tərəfdən hər bir iştirakçı marketinq zəncirinin onları maraqlandıran hissəsi haqqında məlumatları idarə edir.

### *Nəticə*

Aparılan tədqiqatlar göstərir ki, Azərbaycanda kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqısı müvafiq normativ-hüquqi sənədlər əsasında həyata keçirilməsinə baxmayaraq sənədləşmə xeyli vaxt itkisinə səbəb olur. Torpaqların satışı zamanı qiymətlər yerləşdiyi ərazidən asılı olaraq müəyyən edilir və digər əsas göstəricilər (torpağın keyfiyyəti, relyefi, məhsuldarlığı, suvarılma imkanları, magistral yola çıxışı və s) üzrə tam qiymətləndirmə aparılmır. Torpaqların icarəyə verilməsi zamanı torpaq sahibləri becərə bilmədiyindən və ya uzaq məsafədə yerləşməsindən, maliyyə resursları olmadığından onlara diqtə olunan qiymətlərlə razılaşmağa məcbur olurlar. Bu isə mövcud torpaq bazarının, maraqları balanslı şəkildə təmin etmədiyini göstərir. Təhlillərimiz göstərir ki, torpaq bazarının inkişafı kənd yerlərinin inkişafından və regionların sənayeləşməsindən birbaşa asılıdır. Yəni digər sahələrdə işləmək imkanı torpaq sahibinə torpağını ehtiyac üzündən satmağa və ya icarəyə verməyə məcbur etməyəcək. Eyni zamanda torpaq bankının yaradılması torpaqların bazarda əvvəlcədən qiymətləndirməsini aparmağa imkan verəcək və bu qiymətlər tələb-təklifdən asılı olaraq dəyişə bilər.

Aqrar sahəni əhatə edən əmək bazarında da çoxlu problemlər mövcuddur. Bu problemlərə muzdlu işçilərin peşəkarlıq səviyyəsinin aşağı olması, innovativ texnologiyanı zəif mənimsəməsi, təklif olunan işlərin davamlı olmaması və onlara ödənən əməkhaqqının aşağı olması aiddir. Eyni zamanda kənd yerlərində işsizlik səviyyəsinin yüksək olması və məşğulluq səviyyəsinin aşağı olması səbəbindən əmək bazarında ucuz əməyin təklif olunma səviyyəsinin yüksək olması bu bazarın müasir tələblərə cavab verəcək səviyyədə inkişafını ləngidir. Kənd yerlərinin inkişafı və yeni

iş yerlərinin açılması əmək bazarının təkmilləşməsinə imkan yaradır.

Aqrar sahədə istehsalçıların maddi-texniki resurslara olan tələblərinin ödənilməsi üçün fermerlərin maliyyə imkanları məhduddur. Bu sahədə dövlət büdcəsi hesabına subsidiyaların verilməsi və güzəştli kreditlərin tətbiq olunması fermerlərin əsas və dövriyyə vasitələrinə əlçatanlığını təmin edir. Digər tərəfdən resurslar bazarında sertifikatsız məhsulların (toxum, ting, keyfiyyətsiz dərmanların, mineral gübrələrin) satışının olması kənd təsərrüfatında məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Bu istiqamətdə müvafiq tədbirlərin görülməsi və nəzarət mexanizminin hazırlanması məqsədəuyğundur.

Azərbaycanda təsərrüfatların kiçik ölçülü olması səbəbindən onların gəlirlərinin aşağı olması informasiya bazarının inkişafını ləngidir. Belə ki, gəlirləri aşağı olan fermerlər belə xidmətlərə ehtiyacları olsa da müraciət etmirlər. Torpaqlardan istifadənin iqtisadi səmərəliliyinin artırılması üçün ilk növbədə torpaqların konsolidasiyasına ehtiyac vardır və bu, könüllü şəkildə həyata keçirilməlidir. Torpaqların konsolidasiyasında torpaq bazarının rolu böyükdür.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş “Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, - Bakı - 2016 177 s.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli qərarı ilə təsdiq edilmiş “Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi Qaydası”.
3. M.C.Hüseynov, V.T.Əmrahov, A.M.Qasımov, A.FHəsənov, N.A.Nərimanov. “Aqrar istehsal strukturunun diversifikasiyası”, EİF, “Mütərcim” nəşriyyat-poliqrafiya mərkəzi, - Bakı – 2016 -168 s.
4. “Torpaq bazarı haqqında” 7 may 1999-cu il 665-IQ №-li Azərbaycan Respublikasının Qanunu.
5. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı, (Monoqrafiya), Bakı-2016-655 s.
6. İ.H.İbrahimov. Regionların və işğaldan azad edilmiş ərzazilərin inkişaf istiqamətləri, (Monoqrafiya), “Kooperasiya” nəşriyyatı – Bakı – 2022 – 240 s.
7. A.H. Vəliyev. Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin tənzimlənməsinin hüquqi-iqtisadi aspektləri, Bakı-“Avropa” nəşriyyatı-2019-386 s.
8. İqtisadi nəzəriyyə, (dərslik) T.S.Vəliyevin, Ə.P.Babayevin və M.X.Meybullayevin ümimi elmi redaktəsi ilə hazırlanmışdır, “Çaşoğlu” nəşriyyatı-Bakı - 2001-691 s
9. stat.gov.az
10. https://marja.az/76003/azerbaycanda-iqtisadi-artim-3.6-e-catib
11. http://www.fao.org/faostat/en/#data/OE


***Хураман Исмаил кызы Рзаева***
***Азербайджанский Государственный Экономический Университет,***
***Преподаватель кафедры “Теоретической и практической экономики”***

### Направления совершенствования организации рынка производственных ресурсов в агропромышленном комплексе

***Резюме***

**Целью исследования** – изучить текущее состояние рынка производственных ресурсов в Азербайджане и определить направления его улучшения, что повлияет на обеспечение фермерских хозяйств производственными ресурсами в целях обеспечения устойчивого развития сельского хозяйства и повышения доходов фермеров.

**Методология исследования** – При формировании и развитии рынка важных для сельского хозяйства ресурсов в Азербайджане использовались методы наблюдения, статистического анализа, обобщения, аналитического анализа и сравнения.

**Значение применения исследования** – Предложения и рекомендации по улучшению предложения земель сельскохозяйственного назначения в Азербайджане через рынок земли, рынок труда, рынок материально-технических ресурсов и рынок информации могут быть использованы при разработке программ и планов действий в области сельского хозяйства.

**Результаты исследования** – Определено, что современное состояние рынка производственных ресурсов, играющего важную роль в развитии сельского хозяйства Азербайджана, несоответствует современным требованиям, в связи с чем уровень эффективного использования производственных ресурсов низок. С этой точки зрения финансовые, земельные, трудовые, технические ресурсы и информационные рынки, охватывающие рынок производственных ресурсов, нуждаются в расширении и совершенствовании, для эффективного снабжения сельского хозяйства.

**Оригинальность и научная новизна исследования** – Специфика аграрного сектора, проблемы в производстве и реализации продукции, рост цен в последнее время, возрастающие риски и другие факторы вызывают необходимость улучшения функционирования рынка производственных ресурсов. В ходе исследования выявлены факторы, регулирующие деятельность рынка производственных ресурсов в различных сферах.

***Ключевые слова: производство, ресурс, рынок, сельское хозяйство, земля, труд, информация, развитие, экономика.***

***Khuraman Ismail Rzayeva***
***Azerbaijan State University of Economics,***
***Lecturer at the Department of Theoretical***
***and Practical Economics***

**Directions for improving the market of production resources in the agrarian field**

***Summary***

**The purpose of the study** is to study the current state of the production resources market in Azerbaijan and determine the directions for its improvement, which will affect the supply of farms with production resources in order to ensure the sustainable development of agriculture and increase the income of farmers.

**Methodology of the research -** the methods of observation, statistical analysis, generalization, analytical analysis and comparison were used in the direction of the formation and development of the market of resources important for agriculture in Azerbaijan.

**Application importance of the research** - the proposals and recommendations given in the direction of improvement of supply through the land market, labor market, material and technical resources market and information market in Azerbaijan's agriculture can be used in the preparation of programs for agricultural fields and in determining the action plan.

**The results of the study -** it was determined that the current state of the production resources market, which plays an important role in the development of agriculture in Azerbaijan, does not meet modern requirements, and therefore the level of efficient use of production resources was found to be low. From this point of view financial, land, labor, technical resources and information markets covering the market of production resources need to be expanded and improved in order to supply agriculture efficiently.

**Originality and scientific innovation of the research -** The specificity of the agricultural field, problems in production and sale of products, recent price increases, increased risks and other factors contribute to the improvement of the activity of the market of production resources. Factors determining the regulation of activity in different areas of the market of production resources were determined in the study.

***Key words: production, resource, market, agriculture, land, labor, information, development, economy.***